# Bilirsinizmi, müflis kimdir?

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Bilirsinizmi, müflis kimdir?" Dedilər ki: «Bizim aramızda müflis, pulu və malı olmayandır.» Bunun üzərinə Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: "Şübhəsiz ki, ümmətimdən müflis olan o kəsdir ki; Qiyamət günü namazla, orucla və zəkatla gələcək. Lakin buna söymüş , birinə iftira etmiş, birinin malını yemiş, birinin qanını tökmüş və birini vurmuşdur. Buna onun savablarından verilər və digərinə onun savablarından verilər. Üzərində olan qul haqqları ödənmədən əvvəl savabları qurtararsa, onların günahlarından götürülər və onun üzərinə atılar; sonra da özü cəhənnəmə atılar".

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) səhabələrindən soruşdu: Bilirsinizmi müflis kimdir? Onlar dedilər: “Bizim aramızda müflis olan o kəsdir ki, nə pulu var, nə də ki, malı. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) dedi: Mənim ümmətimdən müflis olan o kəsdir ki, qiyamət günü namaz, oruc, zəkat kimi saleh əməllərlə gələcək, lakin birini söyüb təhqir edib, başqa bir adamın namusuna böhtan atıb, digərinin pulunu yeyib onu inkar edib, digərinin qanını tökərək ona zülm edib, bir başqasını vurub alçaldıb. Buna görə də məzluma onun yaxşı əməllərindən bir qədər veriləcək, əgər etdiyi zülm və haqsızlıqları ödəmədən qabaq onun yaxşı əməlləri tükənərsə, məzlumun günahlarından götürülərək zalımın dəftərinə yazılacaq, sonra qovularaq cəhənnəmə atılacaq, çünki onun artıq heç bir yaxşı əməli qalmamışdır.

https://sunnah.global/hadeeth/az/show/6454